





# № 12 Göyərçin 2004

ISSN-0207-4710






# "Qur'ani-Kərim"dən seçmələr

♦ Ucalardan ucadır Allah. Eşidəndir, görəndir hər şeyi Allah.

♦ Səbr xeyir gətirər səbr yiyələrinə, sənin səbr eləməyin, Allah-ın yardımını diləməyindir.

♦ Yaxşılıq eləsəniz, özünüzə yaxşılıq eləmiş olursunuz. Pislik eləsəniz də eləcə.

♦ Kim taparsa doğru yolu, bu onun lehinədir, kim saparsa yolundan, bu onun əleyhinə.

♦ Qohuma, yoxsula və yolçuya haqqını ver. Sərvətini əbəs yerə səpələyib sovurma.

♦ Əlini bağlı tutub xəsislik etmə, bütün də açma onu, yoxsa qınayarlar səni, peşimançılıq çəkərsən.

♦ Vəfa edin əhdinizə. Verdiyi əhdə görə hər kəs cavab verməlidir.

## *QULAQ ASSAN SƏN ATALAR SÖZÜNƏ, HƏYAT HƏR VAXT GÜLƏCƏKDİR ÜZÜNƏ*

*Yüz biliyin olsa da, bir bilənlə danış.*

* * *

*Yüz fikir bir borcu ödəməz.*

* * *

*Yüz tülkü bir aslana neyləyər?*

* * *

*Min xala yığılsa, bir ananın yerini verməz.*

* * *

*Min dərdin min bir dərmanı var.*

* * *

*Min batman varın olunca, bir batman ağlın olsun.*

* * *

*Min qapıdan duz dadan bir qapıda bənd olmaz.*

* * *

*Min qoyunlunun bir qoyunluya işi düşər.*

* * *

*Yüz sənəti pis bilməkdənsə, bir sənəti yaxşı bilmək yaxşıdır.*

*MAHNI TÖHFƏSİ*

# MÜƏLLİM QƏLƏMİ

Musiqisi *RƏŞİD ŞƏFƏQİN*,
Sözləri *RAFİQ YUSİFOĞLUNUNDUR*

Müəllimin qələmi
İş görməyə tələsir.
Minaaxtaran kimi
Sətirlər üstə gəzir.

Tez kağıza qırmızı
İşarələr düzülür.
Yaralanmış qələmdən
Elə bil qan süzülür.

Yaxşı cümlə görəndə
Qanad çalan quş olur.
Hər səhv tapanda, sanki
Bir minaya tuş olur.




Rəssam *AYTƏN*